AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UİVERSİTETİ

**Pedaqoji universitet və institutlarda bakalavr hazırlığı üçün proqram**

# Şəxsiyyət və fəaliyyətin psixologiyası
# 050121-Təhsildə sosial-psixoloji xidmət

**Proqram "Təhsildə sosial-psixoloji xidmət" ixtisası üzrə təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur**

**Bakı-2015**

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UİVERSİTETİ

**Pedaqoji universitet və institutlarda bakalavr hazırlığı üçün proqram**

# Şəxsiyyət və fəaliyyətin psixologiyası
## 050121-Təhsildə sosial-psixoloji xidmət

Az2236943

**Proqram "Təhsildə sosial-psixoloji xidmət" ixtisası üzrə təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur**

*Azərbaycan Respublikası Təhsil Nazirinin 29. 05. 2015-ci il tarixli 621 saylı əmrinə əsasən çap edilir.*

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Bakı-2015

**Tərtib edən:** -ADPU-nun yaş və pedaqoji psixologiya kafedrasının dosenti Edison Məmməd oğlu Quliyev.

**Rəyçilər:** -AMİ-nin psixologiya kafedrasının müdiri dosent N.T.Rzayeva.
-ADPU-nun yaş və pedaqoji psixologiya kafedrasının baş müəllimi p.ü.f doktoru Q.V.Rəhimova.
-ADPU-nun Ümumi psixologiya kafedrasının baş müəllimi p.ü.f doktoru M.S.Əliyev.

**Redaktor:** -ADPU-nun ümumi psixologiya kafedrasının müdiri prof. R.İ.Əliyev.



**İzahat vərəqəsi**

"Təhsildə sosial-psixoloji xidmət" ixtisası üzrə təhsil alan bakalavr-tələbələr üçün nəzərdə tutulmuş seçmə fənn proqramında şəxsiyyət və fəaliyyət psixologiyasının nəzəri və praktik-tətbiqi problemlərinin ətraflı istiqamətdə müzakirəsi və öyrənilməsi planlaşdırılmışdır.

"Şəxsiyyət və fəaliyyətin psixologiyası" adlanan seçmə fənn kursu üzrə mühazirələri dinləyən və seminar məşğələlərində fəal iştirak edən tələbə

**Bilməlidir:**

- Şəxsiyyətin mahiyyətinin və onun strukturasının əsas kateqoriyalarının nəzəri-psixoloji əsaslarını;
- Şəxsiyyət psixologiyasında irəli sürülən klassik və müasir nəzəriyyələri, baxışları və yanaşmaları;
- Şəxsiyyətin ontogenetik inkişafının qanunauyğunluqlarını;
- Uşaq şəxsiyyətinin inkişaf nəzəriyyəsinin psixoloji qanunauyğunluqlarını;
- Özünütərbiyənin nəzəriyyə və praktikasının müasir problemlərini;
- Fəaliyyət psixologiyasının nəzəri və psixogenetik məsələlərini;
- Şəxsiyyətlə fəaliyyətin qarşılıqlı asılılığının nəzəri-psixoloji problemlərini;

**Bacarmalıdır:**

- Şəxsiyyətin kateqorial sistemini təhlil etməyi;
- Şəxsiyyətə dair çoxşaxəli klassik və müasir nəzəriyyə və baxışları mənalandırmağı;
- Şəxsiyyətin fərdi inkişafının şərait və amillərini müəyyənləşdirməyi;
- Şəxsiyyətin özünütərbiyəsinin vasitələrinin praktik-tətbiqi imkanlarını sistemli surətdə təsəvvür etməyi;

- Fəaliyyətin nəzəri və psixogenetik problemlərini təhlil etməyi.

**Yiyələnməlidir:**

- Şəxsiyyətin strukturasının bütün aspektlərini və buna dair irəli sürülən baxışları nəzəri-elmi planda mənalandırmağa;
- Klassik və müasir psixologiyada şəxsiyyətə dair irəli sürülən ideya və baxışların tətbiqi imkanlarını ümumiləşdirməyə;
- Şəxsiyyətin psixologiyasında toplanılan faktları və irəli sürülən qanunauyğunluqları kreativ yönümdə təhlil etməyə;
- Fəaliyyətin psixogenetik problemlərinə dair ətraflı təsəvvürə;
- Şəxsiyyətin özünütərbiyəsinin nəzəri və praktik-tətbiqi problemlərinin ətraflı planda mənalandırılmasına.

"Təhsildə sosial-psixoloji xidmət" ixtisas seçiminə uyğun olaraq hazırda tətbiq olunan tədris planında "Şəxsiyyət və fəaliyyətin psixologiyası" seçmə kursuna 60 saat həcmində tədris yükü ayrılmışdır.Tədris planında 30 saat mühazirə kursu, 30 saat isə seminar məşğələləri üçün nəzərdə tutulmuşdur. Gələcəkdə tədris planında seçmə fənnə ayrılan saatların ümumi həcmi artırılarsa, belə halda ayrı-ayrı problemlərin öyrənilməsinə ayrılan mühazirə və seminar saatlarının miqdarını da müvafiq surətdə artırmaq olar.



**Predmetin məzmunu**

**Mövzu 1**

**Şəxsiyyət və onun mahiyyətinin psixoloji problemləri**

Şəxsiyyət psixoloji tədqiqatın predmeti kimi. İnsanın fərdi inkişafında genotipik, fenotipik, bioloji və sosial amillər. Psixi hadisələrin tədqiqində şəxsiyyət prinsipinin mövqeyi və rolu. Şəxsiyyət insanın aktivliyinin inteqratoru, "reflektoru" və requlyatoru kimi.

Şəxsiyyət psixologiya elminin kateqoriyası kimi. Psixologiya elminin kateqorial sistemində şəxsiyyət anlayışının mövqeyi. Psixologiyada şəxsiyyət haqqında anlayış. Şəxsiyyət haqqında materialist təlimin ümumi müddəaları. İnsan təbii və ictimai varlıq kimi. İnsan həyat subyekti kimi. İnsanın təbiəti və varlığının xüsusiyyətləri. İnsan və onun dünyası.Şəxsiyyətin mahiyyəti-bütün ictimai münasibətlərin məcmui kimi (K.Marks).

Şəxsiyyət tarixi təkamülün və ontogenetik inkişafın məhsulu kimi. Şəxsiyyət anlayışının tarixi-psixoloji səciyyəsi. Şəxsiyyətə verilən pozitivist təriflərin tənqidi təhlili. Psixososial münasibətlər sistemi şəxsiyyətin mahiyyətinin fenomenoloji xarakteristikasının əsas amili kimi.

Fərd, şəxsiyyət və fərdiyyət anlayışlarının müqayisəli təhlili. Şəxsiyyət fərdlərarası münasibətlərin subyekti kimi. Şəxsiyyət və fərdiyyət. Şəxsiyyət ictimai və ontogenetik inkişafın müəyyən mərhələsinin məhsulu kimi. Şəxsiyyətin ictimai-tarixi inkişafın və bütövlükdə bəşər mədəniyyətinin məhsulu olması haqqında L.S.Vıqotskinin (1896-1934) ideyaları. Şəxsiyyətin xüsusiyyətlərinin onun həyatının konkret tarixi şəraitdən asılılığı. Şəxsiyyətin inkişafının onun sosial münasibətlər sistemində tutduğu mövqe ilə şərtlənməsi. Şəxsiyyət və şüur. İnsanın subyektiv mövqeyinin rolu.

## Mövzu 2
## Şəxsiyyətin quruluşunun psixoloji problemləri

Şəxsiyyətin quruluşu haqqında ümumi anlayış. Şəxsiyyətin quruluşunun müəyyənləşdirilməsinə dair irəli sürülən və ənənəvi psixologiyada geniş yer tutan sintetik yanaşmanın tənqidi təhlili.

Müasir dövrdə şəxsiyyətin strukturasına dair irəli sürülən konsepsiyalar. Şəxsiyyətin strukturasının psixikanın və şüurun tərkibindən ayrılması. Şəxsiyyətin strukturasına dair S.L.Rubinşteynin (1889-1960) baxışları. S.L.Rubinşteynə görə şəxsiyyətin strukturasında ayrılan əsas komponentlər: şəxsiyyətin istiqaməti; bilik, bacarıq və vərdişlər; fərdi-tipoloji xüsusiyyətlər. Tanınmış psixoloq K.K.Kovalyovun mövqeyinə görə şəxsiyyətin strukturasının əsas komponentləri bunlardır: şəxsiyyətin istiqaməti; şəxsiyyətin imkanları; şəxsiyyətin sosial mühitdə davranış üslubu (xarakter); şəxsiyyətin mumarisələr sistemi. Görkəmli psixoloq V.S.Merlin (1898-1982) şəxsiyyətin strukturasında üç komponentin rolunu ön plana çəkir: varlığa ümumiləşmiş münasibətlər sistemi ( motivlər sistemi, emosional-idraki komponent);münasibətlər sistemini reallaşdıran vasitələr (xarakter, qabiliyyətlər); şəxsiyyətin özünü dərketməsi. Şəxsiyyətin strukturasına dair A.H.Maslounun baxışlarının özünəməxsusluğu. A.H.Maslounun şəxsiyyətin strukturasına daxil etdiyi tələbatlar: 1) özünüaktuallaşdırmağa olan tələbat (özünüifadə, fərdiyyətçilik),2) estetik tələbatlar (gözəllik, harmoniya, simmetriya), 3) idrak tələbatları (bilik, anlama, tədqiqat), 4) nüfuza malik olmaqla əlaqədar tələbatlar (status, cəmiyyətdə müəyyən mövqeyə malik olmaq, nüfuzlu şəxslər tərəfindən dəstək); 5) sosial tələbatlar (hər hansı sosial qrup tərəfindən qəbul edilmək, diqqət obyekti olmağa tələbat, sevmək və başqaları tərəfindən sevilmək); 6) ekzistenisial tələbatlar (təhlükəsizlik, gələcəklə bağlı inam), 7) fizioloji tələbatlar (qida, hava, su, hərəkət, istirahət, geyim, yaşamaq üçün mənzilin olması, seksual tələbatların ödənilməsi).



Şəxsiyyət və bioloji determinasiya. Şəxsiyyətin strukturasına empirik yanaşma: kliniki, eksperimental, faktorlu-analitik, davranış yönümlü.

Davranışın situasion determinisiyası. Şəxsiyyətin ziddiyyətli vəziyyətə və qeyri-müəyyənliyə reaksiyası.

Şəxsiyyət sosial münasibətlər sistemində. Şəxsiyyətin sosial təcrübəsinin strukturası (dünyanın mənzərəsi, həyat tərzi, əxlaqi mövqe). Şəxsiyyətin sosializasiyası və fərdiləşməsi. Status, şəxsiyyətin sosial rolları və mövqeləri. Şəxsiyyətin həyat prespektivləri və sərvət meyilləri. Şəxsiyyətin daimiliyi və dəyişkənliyi.

Şəxsiyyət və motivasiya. Şəxsiyyətin məna sahəsi. "Mən-obraz"ın strukturu. U.Cemsin (1842-1910) irəli sürdüyü empirik "mən"in üç komponenti: fiziki şəxsiyyət, sosial şəxsiyyət, mənəvi şəxsiyyət. Özünüqiymətləndirmə, özünütəsdiq və özünəhörmət şəxsiyyətin quruluşunun mühüm komponentləri kimi. Şəxsiyyətin strkturasında idrak, emosional və iradi əlamətlərin mövqeyi.

Şəxsiyyətin psixoloji müdafiə mexanizmləri haqqında ümumi anlayış. Psixoloji müdafiə mexanizmlərinin komponentləri: sıxışdırıb çıxartma, inkar etmə, persionalizasiya, reaktiv törəmələr, proyeksiya, izolyasiya, reqressiya, sublimasiya.

Psixoloji məsafə haqqında ümumi anlayış. Psixoloji məsafə (distansiyaya) olan tələbat (K.Obuxovskiy) psixoloji azadlığın təzahürü kimi. Mən-konsepsiya və şəxsiyyətin müdafiə mexanizmləri. İddia səviyyəsi və özünüqiymətləndirmə.

## Mövzu 3
## Şəxsiyyət psixologiyasında irəli sürülən klassik nəzəriyyələr

Şəxsiyyət və onun inkişafının hərəkətverici qüvvələrinə dair irəli sürülən klassik nəzəriyyələrin tarixi-psixoloji

səciyyəsi. Bioloji və biogenetik nəzəriyyənin mahiyyəti. Şəxsiyyətin inkişafını sosial və sosiogenetik nəzəriyyəsi. Şəxsiyyətin inkişafına biososial yanaşmanın mahiyyəti.

Klassik psixoanalizdə şəxsiyyət problemi. Z.Y.Freydə (1856-1939) görə şəxsiyyətin quruluşu: anadangəlmə şüursuz meyllərin və sosiallaşmış şüurun münaqişəliliyi prinsipi. Şüursuzluq, psixoloji müdafiə və proyeksiya. Şəxsiyyətin müdafiə mexanizmləri. Z.Y.Freydin baxışlarına görə şəxsiyyətin strukturu üç instansiya haqqında təlim şəklində müəyyənləşdirilir: "Mən", "O", "İdeal-mən". Şəxsiyyət haqqında neofreydist konsepsiyalar (K.Xorni, Q.Salliven, E.Fromm). Şəxsiyyət haqqında biheviorist baxışların mahiyyəti (B.F.Skinner, A.Bandura, D.Dollard). Sosial təlim nəzəriyyəsi biheviorist yanaşmanın əsas faktoru kimi.

K.Q.Yunqun (1875-1961) analitik psixologiya nəzəriyyəsi. K.Q.Yunq şəxsiyyətin formalaşması prosesini fərdiləşmə adlandırır. Onun məqsədi şüurluluğu və şüursuzluğu birləşdirməkdə, müvazinətləşdirməkdə və əlaqələndirməkdə ifadə olunur. Bu prosesin gedişini analitik araşdırmalar zamanı psixoterapevtik müdaxilənin köməyi ilə izləmək olar. K.Q.Yunqun analitik psixologiyasında iki anlayış fərqləndirilir: xarici aləmə yönələn eksteriovertlilik və daxili aləmə yönələn introvertlilik. K.Q.Yunq irəli sürdüyü konsepsiyanı analitik psixologiya adlandırmışdır. Onun mərkəzi məzmununu şüursuzluq və şəxsiyyətin inkişaf prosesi haqqında təlim təşkil edir.

A.Adlerin (1870-1937) fərdi psixologiya nəzəriyyəsi. A.Adler şəxsiyyətin inkişafında insanın özünün fərdiyyətliliyini yüksək qiymətləndirirdi. A.Adler klassik psixologiyanı yeni bir anlayışla-"yaradıcı Mən" anlayışı ilə zənginləşdirmişdir. "Yaradıcı Mən" şəxsiyyətin inkişafını fərdiləşdirir. A.Adlerin irəli sürdüyü şəxsiyyət nəzəriyyəsini əsaslandıraraq onun strukturunun əsas komponentlərini irəli sürmüşdür: 1) fiktiv (saxta) xarakterli finalizm, 2) üstün



olmağa meyl, 3) çatışmamazlıq hissi, 4) ümumilik hissi, 5) həyat üslubu, 6) "yaradıcı -Mən".

A.F.Lazurskinin (1874-1917) şəxsiyyətin inkişafına dair irəli sürdüyü konsepsiyanın mahiyyəti. A.F.Lazurskiyə görə şəxsiyyətin inkişafında endopsixiki və ekzopsixiki faktorların vəhdəti əsas determinant kimi ön plana çəkilməlidir.

## Mövzu 4
## Şəxsiyyət psixologiyasında irəli sürülən müasir nəzəriyyə və baxışlar

Alman psixoloqu K.Levinin (1890-1947) topoloji psixologiyasında (sahə nəzəriyyəsində) şəxsiyyət haqqında təlim. Şəxsiyyətin dinamik situasiyalarda təzahürü, şəxsiyyətin psixoloji sahəsi və həyat fəzası haqqında anlayış. K.Levinin məktəbində şəxsiyyətin eksperimental tədqiqi; gərginlik və doyumluq, naliyyət və müvəffəqiyyətsizlik və iddia səviyyəsi haqqında anlayış. Şəxsiyyətə tipoloji münasibətin tənqidi təhlili. Konformizm və nonkonformizm haqqında analyış.

C.L.Morenonun ( 1889-1974) "rolar" və "rol gözləmələri" konsepsiyasının psixososial mahiyyəti. Şəxsiyyətin sosial mühitdə davranış üslubunun öyrənilməsində bu nəzəriyyənin mövqeyi. Şəxsiyyətin mahiyyətinin onun ictimai və şəxsi münasibətlərində reallaşdırdığı rollarda əks olunması ilə bağlı yanaşmanın tənqidi təhlili.

Humanistik psixologiyada şəxsiyyət konsepsiyası (A.H.Maslou, K.R.Rocers). Humanistik psixologiyada irəli sürülən əsas anlayışların- özünüaktuallaşdırma və özünüifadəizahedici və təhliledici imkanlarının psixoloji səciyyəsi. A.H.Maslounun (1908-1970) şəxsiyyətin tələbatlarının ierarxik strukturası haqqında təlimi. Şəxsiyyətə yanaşmada humanistik prinsiplərin ön plana çəkilməsinin rolu ilə əlaqədar K.R.Rocersin (1902-1987) mövqeyi.

Psixoanalitik konsepsiya çərçivəsində V.E.Franklın (1905-1995) irəli sürdüyü loqoterapiya nəzəriyyəsinin

mahiyyəti və onun praktik-tətbiqi əhəmiyyəti. Həyatın mənasına və azad olmağa can atma-V.E.Franklın konsepsiyasının əsas istiqamətləri kimi. V.E.Franklın mövqeyinə görə, insanın varlığının, yanaşmasının əsas prinsipini insan həyatının maksimum səviyyədə mənalı olmasının təmin edilməsi təşkil edir. Şəxsiyyətin məna axtarışında olması onun ahəngdar inkişafının mühüm amili kimi.

Münasibət kateqoriyası V.M.Myasişevin (1892-1973) şəxsiyyət konsepsiyasının əsas izahedici amili kimi. V.M.Myasişevin şəxsiyyət nəzəriyyəsində mərkəzi element kimi münasibət anlayışı irəli sürülür. V.M.Myasişevə görə, şəxsiyyətin strukturasında üç istiqamət fərqləndirilməlidir: a) emosional, b) qiymələndirici (koqnitiv, idraki), c) konativ (davranış).

V.S.Merlinin (1898-1982) inteqral fərdiyyətlilik nəzəriyyəsi. V.S.Merlin şəxsiyyəti ictimai-əmək fəaliyyətinin subyekti kimi xarakterizə edir. Onun fikrincə, şəxsiyyətin hər bir psixi xassəsi onun fəaliyyətin obyektinə münasibətini ifadə edir.

Görkəmli psixoloq A.N.Leontyevin (1903-1979) şəxsiyyət konsepsiyasında şəxsiyyətin üç əsas parametri ön plana çəkilir: a) insanın dünya ilə əlaqələrinin genişliyi (onun fəaliyyəti vasitəsilə), b) bu əlaqələrin silsiləvariliyinin səviyyəsi və bunun təsiri altında mənanı formalaşdıran motivlərin əmələ gəlməsi (motivlər-məqsədlər), c) motiv-məqsədlərin ümumi strukturası. A.N.Leontyevə görə, şəxiyyətin formalaşması şəxsi mənalar sisteminin əlaqəli surətdə müəyyənləşməsində ifadə olunur.

Tanınmış psixoloq S.L.Rubinşteynin (1889-1960) şəxsiyyətlə bağlı əsas ideyası ondan ibarətdir ki, psixi proseslər, onların təzahürü və inkişafı şəxsiyyətdən asılıdır. Psixi proseslərin şəxsiyyətdən asılılığı onda ifadə olunur ki, bu proseslər idarə olunan proseslərə, əməliyyatlara çevrilməklə şəxsiyyətin funksiyaları kimi müəyyənləşirlər. S.L.Rubinşteynin şəxsiyyət konsepsiyasının ən mühüm ideyalarından biri odur ki, xarici təsir daxili şərait vasitəsilə reallaşır.



Psixoloq K.K.Platonovun şəxsiyyətin dinamik funksional strukturası konsepsiyası. K.K.Platonov şəxsiyyətin strukturasında dörd komponenti ön plana çəkir: 1) şəxsiyyətin istiqaməti və münasibətləri, 2) şəxsiyyətin əldə etdiyi təcrübə, 3) şəxsiyyətin psixi proseslərinin fərdi xüsusıyyətləri, 4) şəxsiyyətin biopsixi xüsusiyyətləri.

D.N.Uznadzenin (1888-1950) yönəlişlik və şəxsiyyət nəzəriyyəsi. B.G.Ananyevin (1907-1972) insanın bütövlüyü haqqında konsepsiyası. Şəxsiyyətin strukturasında onun istiqamətinin və motivlərinin silsiləvari sisteminin üstün mövqeyə malik olması haqqında L.İ.Bojoviçin (1908-1981) nəzəri baxışları.

Müasir psixologiyada şəxsiyyətin mənşəyi və inkişafının psixososial mexanizmlərinin təhlilində istifadə olunan əsas prinsiplər: determinizm prinsipi, inkişaf prinsipi, şüur və fəaliyyətin vəhdəti prinsipi, aktivlik prinsipi, analiz və sintez prinsipi.

## Mövzu 5
## Şəxsiyyətin ontogenetik inkişafının psixoloji problemləri

Ontogenetik inkişaf prosesində şəxsiyyətin inkişafı haqqında ümumi anlayış. Şəxsiyyətin ontogenezdə inkişafının təbii və mədəni səviyyələri. Şəxsiyyətin həyat yolu onun inkişaf tarixi kimi. İnsanın həyat yolunun ontogenetik inkişafına təsiri. Psixologiyada yaş dövrləri problemi. Fiziki yaş, psixoloji yaş və əqli yaş anlayışlarının müqayisəli səciyyəsi.

Fəaliyyət motivlərinin yeni ierarxik əlaqələrinin yaranması və şüurun məna sferasının (emosional-qiymətləndirici) inkişafı; burada ünsiyyət prosesinin, sosial münasibətlərin və normaların mənimsənilməsinin rolu.

Fərdi inkişaf prosesində əsas fəaliyyət növlərinin dəyişilməsi. Fəaliyyət dairəsinin genişlənməsi-onların

inteqrasiyasının şəraiti kimi. Məqsədlərin, o cümlədən uzaq məqsədlərin formalaşması və onların həyati əhəmiyyətli motivlərə çevrilməsi. Şəxsiyyətin psixososial identikliyi onun yetkinliyinin meyarı kimi. Şəxsiyyətin inkişafında konfliktlərin rolu. L.S.Vıqotskinin "konfliktlər şəxsiyyəti inkişaf etdirir" tezisi. Koqnitiv yönüm. Şəxsiyyətin əxlaqi şüurunun inkişaf nəzəriyyəsi (J.A.Piaje).

Erkən uşaqlıq illərində uşaq şəxsiyyətinin inkişafının psixoloji problemləri. J.Piajenin uşaq eqosentrizmi nəzəriyyəsi. Bu nəzəriyyənin L.S.Vıqotski tərəfindən tənqidi. L.S.Vıqotski uşağın və onun şüurunun inkişafında baş verən dəyişikliklər haqqında. Psixi funksiyaların yeni sisteminin yaranması. Hafizənin inkişafı. Hafizənin şüurun mərkəzi faktına çevrilməsi. Uşağın maraq və tələbatlarının yenidən qurulması. L.S.Vıqotskinin məktəbəqədər yaş dövründə uşaqda daxili etik instansiyaların, cəmiyyət haqqında, özü haqqında ilk ümumi təsəvvürlərin yaranması ilə əlaqədar baxışları. A.N.Leontyev məktəbəqədər yaş dövründə uşaq şəxsiyyətinin inkişafı haqqında.Uşağın ictimai münasibətlər sistemində tutduğu mövqe-onun şəxsiyyətinin inkişafının əsas hərəkətverici qüvvəsi kimi. A.N.Leontyevin aparıcı fəaliyyət haqqında nəzəriyyəsi. Məktəbəqədər yaş dövründə ilk dəfə olaraq şəxsiyyətin psixoloji mexanizmlərinin təşəkkülü. Şəxsiyyətin formalaşmasının məktəbəqədər yaş dövrünün başlanğıcında yaranan və bu dövr ərzində inkişaf edən motivlərin qarşılıqlı tabeliyi ilə əlaqədar olması haqqında. A.N.Leontyevin baxışları. Motivlərin qarşılıqlı tabeliyi əsasında şəxsiyyətin istiqamətinin formalaşması.

Kiçik məktəb yaşı dövründə şəxsiyyətin inkişaf xüsusiyyətləri. Şəxsiyyətin inkişafında aparıcı fəaliyyət növü olan təlimin və uşağın yeni sosial-psixoloji münasibətlərə daxil olmasının rolu.

Yeniyetmə yaşında mənlik şüurunun təşəkkülü və onun inkişaf mərhələləri. Yeniyetməyə xas olan psixoloji xüsusiy-



yətlər və onların yeniyetmənin davranış və münasibətlərində təzahürü.

Gənclik dövründə şəxsiyyətin inkişafının psixoloji xüsusiyyətləri.

Şəxsiyyət və cəmiyyət. Şəxsiyyət və kollektiv. Şəxsiyyətin sosial rolları. Rolla bağlı münaqişələr. Şəxsiyyət, refrent qrup və ilkin kollektiv. Kollktivin referentliyinin şəxsiyyət üçün əhəmiyyəti. Şəxsiyyət, ideal qrup və refleksiv gözləmələr. Şəxsiyyət insan fəaliyyəti sistemində. Şəxsiyyət ünsiyyət, əmək, oyun və təlim-tərbiyə prosesində.

Şəxsiyyətin formalaşması-insanın əxlaqi inkişafının prosesi kimi. Əxlaqi şüur. İdealogiyanın sosial əqidələrin formalaşmasına təsiri. Biliklərin psixoloji problemləri və dünyagörüşünün formalaşması.

İnsanın daxili dünyası anlayışı: onun təzahürünün çoxcəhətli formaları.

## Mövzu 6
## Uşaq şəxsiyyətinin inkişaf nəzəriyyəsinin psixoloji problemləri

Məktəbəqədər dövrün çərçivəsi daxilində şəxsiyyətin inkişaf problemlərinin qoyuluşu. Klassik və müasir psixologiyada şəxsiyyətin erkən illərdən inkişafa başlamasının mümkünlüyü ideyasının özünəməxsus aspektləri. Fərdi fərqlərin təzahür şəraiti ilə əlaqədar şəxsiyyətin erkən inkişafının mümkünlüyü barədə psixoloji yanaşmanın mahiyyəti (F.Halton).

Psixolinqvistik istiqamət və şəxsiyyətin mənşəyi problemi. Pedaqogikada irəli sürülən müstəqillik ideyası və şəxsiyyətin ilkin təzahürü probleminə pedaqoji yanaşmanın mahiyyəti.

Körpəlik dövründən məktəbəqədər yaş dövrünə keçidin psixoloji xüsusiyyətləri. Körpəlik dövründə uşağın yaşlılarla birgə fəaliyyəti. Körpəlik dövrünün sonunda müstəqilliyə

meylin artması. "Mən özüm" anlayışının psixoloji mahiyyəti. Körpənin emosional həyatının xüsusiyyətləri və ünsiyyət dairəsinin genişlənməsi. Davranış qaydalarının mənimsənilməsi. Ətraf aləmə münasibətdə uşağın mövqeyinin dəyişməsi. Üç yaşın böhranı problemi. Körpə yaşlı uşaqların fərdi xüsusiyyətləri.

Uşaq şəxsiyyətinin genetik mənşəyi və inkişafı ilə əlaqədar J.Piajenin (1896-1980) irəli sürdüyü psixoloji ideyaların mahiyyəti. J.Piajenin irəli sürdüyü təfəkkür və davranışın inkişaf nəzəriyyəsi baxımından şəxsiyyətin ilkin mənşəyi problemi. J.Piajenin uşaq eqosentrizmi nəzəriyyəsinin sosial-psixoloji mahiyyəti. J.Piajenin baxışlarının L.S.Vıqotski tərəfindən tənqidi təhlili. L.S.Vıqotskinin uşağın və onun şüurunun inkişafında baş verən dəyişikliklərə dair fikirləri (psixi funksiyaların yeni sisteminin yaranması; hafizənin inkişafı, hafizənin şüurun mərkəzi faktına çevrilməsi, uşağın maraq və tələbatlarının yenidən qurulması). L.S.Vıqotski məktəbəqədər yaş dövründə uşaqda daxili etik instansiyaların, cəmiyyət haqqında, özü haqqında ilkin təsəvvürlərin yaranması haqqında. Uşaq şəxsiyyətinin ilkin mənşəyi ilə əlaqədar L.S.Vıqotskinin mövqeyinin tənqidi münasibət doğuran cəhətləri. A.N.Leontyevin (1903-1979) məktəbəqədər yaş dövründə şəxsiyyətin təşəkkülünə dair baxışlrı. Uşağın ictimai münasibətlər sistemində tutduğ mövqe-onun şəxsiyyətinin inkişafının əsas hərəkətverici qüvvəsi kimi. A.N.Leontyevin aparıcı fəaliyyət haqqında nəzəriyyəsi. Məktəbəqədər yaş dövründə ilk dəfə olaraq şəxsiyyətin psixoloji mexanizmlərinin təşəkkülü. Şəxsiyyətin formalaşmasının məktəbəqədər yaş dövrünün başlanğıcında yaranan və bu dövr ərzində inkişaf edən mptivlərin qarşılıqlı tabeliyi ilə əlaqədar olması haqqında A.N.Leontyevin ideyaları. Motivlərin qarşılıqlı tabeliyi əsasında şəxsiyyətin istiqamətinin formalaşması.

Məktəbəqədər yaş dövründə şəxsiyyətin inkişafında uşaqla yaşlının çoxcəhətli qarşılıqlı münasibətlərinin rolu



haqqında D.B.Elkoninin (1904-1980) baxışları. Uşaq şəxsiyyətinin inkişafında onun yaşlılarla və yaşıdları ilə münasibətlərinin rolu. Fəaliyyətin yeni tiplərinin yaranması. Uşaq şəxsiyyətinin inkişafında onların aparıcı rolu.

Məktəbəqədər yaş dövründə ixtiyari davranışın inkişaf xüsusiyyətləri. Ətraf gerçəklik və dünya haqqında ilkin təsəvvürlərin formalaşması. Özünüdərketmənin ilkin təzahürlərinin əmələ gəlməsi. Əxlaqi hisslərin təşəkkülü. İxtiyari fəaliyyətin əmələ gəlməsi. Özünüqiymətləndirməyə meylin ilkin təzahür xüsusiyyətləri. Yaşlı ilə müxtəlif tipli işgüzar və şəxsi ünsiyyətə tələbatın formalaşması.

## Mövzu 7
## Özünütərbiyə anlayışı və şəxsiyyətin inkişafının hərəkətverici qüvvələri

Müasir şəxsiyyət psixologiyasında və pedaqoji psixologiyada özünütərbiyə probleminin və onun qanunauyğunluqlarının öyrənilməsinin aktuallığının və praktik-tətbiqi əhəmiyyətinin elmi-psixoloji və psixopedaqoji xarakteristikası. "Özünütərbiyə" anlayışının mahiyyətinin düzgün başa düşülməsi onun psixopedaqoji funksiyalarının konkretləşdirilməsinin zəruri şərti kimi.

Özünütəbiyə anlayışının əhatə dairəsinin genişləndirilməsi ilə əlaqədar yanaşmaların səciyyəsi. Əmək özünütərbiyəsinin iradi özünütərbiyə ilə müqayisədə ön plana çəkilməsi. Bu yanaşmanın tənqidi təhlili.

Özünütərbiyə anlayışının müstəqilliyə meyl anlayışı ilə eyniləşdirilməsi. Öz fəaliyyətini müstəqil idarə etmək cəhdinin özünütərbiyənin təzahürü kimi başa düşülməsi mövqeyinin birtərəfli olması. Özünütərbiyə ilə müstəqilliyin eyniləşdirilməsi tendensiyasının geniş yayılmasının səbəbləri. "Davranışın müstəqilliyi" və "şəxsiyyətin dəyişilməsi " anlayışlarının müqayisəli səciyyəsi.

Özünütərbiyənin xarakterinin onun vəzifələrinin özünəməxsusluğundan asılı olması. Özünütərbiyə-insanın fəaliyyəti olub, öz şəxsiyyətini təkmilləşdirmək məqsədinə xidmət edir.

Tərbiyə və özünütərbiyənin qarşılıqlı əlaqəsi problemi. Psixi inkişafın xarici və daxili faktorlarının müəyyənləşdirilməsinin və təhlilinin nəzəri-psixoloji əhəmiyyəti. Özünütərbiyə prosesinin nəzəri əsasının işlənilməsində psixi inkişafın dialektik konsepsiyasının rolu. Şəxsiyyətin inkişafında özünütərbiyənin aparıcı mövqeyə malik olması. Müəyyənləşmiş ictimai münasibətlərin şəxsiyyətin özü üzərində iş aparmasına təsiri. Xarici aləmdə münasibətlərin şəxsiyyətin özünütərbiyəsində və sosial həyatında rolu.

## Mövzu 8

## Özünütərbiyə prosesinin təşəkkülü və məktəbli şəxsiyyətinin inkişafında onun rolu

Özünütərbiyə insanın xarici aləmlə münasibətlərinin müəyyən mərhələsini əks etdirməklə yanaşı bu münasibətlərin fonunda formalaşır və şəxsiyyətin ümumi inkişafı ilə müşayiət olunur.

Özünütərbiyənin ilkin təzahürlərinin psixoloji səciyyəsi. Körpəlik və məktəbəqədər yaş mərhələlərində onun təzahür xüsusiyyətləri.

Kiçik məktəbyaşı dövründə özünütərbiyənin təzahür xüsusiyyətləri və şəxsi davranışla bağlı əlamət və keyfiyyətlərin qiymətləndirilməsinə fəal meyl. Kiçik yaşlı məktəblilərin özünüqiymətləndirilməsində yaşlıların qiymətləndirici mülahizələrinin əsas mövqeyə malik olması. Kiçikyaşlı şagirdin davranışı ilə şəxsiyyəti arasında əlaqənin olmasının müəyyənləşdirməyə nail ola bilməməsi.

Yeniyetmə dövründə özünüdərketmənin inkişafı-davranış və hərəkətlərin, imkan və naliyyətlərin düzgün qiymətləndirilməsinin əsas amili kimi. Yeniyetməyə məxsus müstəqillik maksimalizminin təzahür xüsusiyyətləri. Yeniyetmənin müstəqillik maksimalizmi ilə onun real imkanları arasında ziddiyyətin yaranması. Şagirdin şəxsi keyfiyyətləri ilə davranışı arasındakı asılılığı dərk edərək qiymətləndirməyə aktiv meyl etməsi. Yeniyetmənin tərbiyənin passiv obyekti olmaqdan imtina etməsi-onun tərbiyənin subyektinə çevrilməsini şərtləndirən mühüm psixoloji amil kimi.



Yeniyetmənin öz şəxsiyyətini dərk etməsi, həyatda daha müstəqil olmağa meyl, özünü formalaşdırmaqda aktiv cəhd, kollektivdə öz yerini tutmağa, malik olduğu keyfiyyətləri nümayiş etdirməyə mane olan nöqsanlardan narazılıq tədricən onun özünütərbiyə prosesinə daxil olması üçün əlverişli real psixoloji zəmin yaradır.

Yeniyetmə dövründə ziddiyyətli vəziyyət müşahidə olunur: özünütərbiyə yolu ilə müstəqilliyini təmin edən yeniyetmə əksər hallarda müstəqil surətdə özünüqimətləndirməsini yönəldə bilmir və konkret şəraitin dairəsi daxilində özünütərbiyəyə meyl edir. Yaranmış vəziyyət "situativ" özünütərbiyəni şərtləndirən amil kimi.

Gənclik dövrünə keçidlə əlaqədar olaraq məktəblilərdə özünütərbiyə prosesinin dərk olunması üçün, şəxsiyyətin keyfiyyətlərinin şüurlu surətdə tərbiyənin obyektinə çevrilməsi üçün bəzi amillərin mövcud olması. Gənclik dövründə şəxsiyyətin xarici aləmlə qrşılıqlı əlaqəsində mövqeyinin dəyişilməsi. Böyük yaşlı məktəblinin özünü real dünyadakı yerini mənalandırmağa və başa düşməyə aktiv meyl etməsi. Subyektiv realizm mövqeyini xarakterizə edən əlamətlər.

Erkən gənclik dövründə məktəbli özünün özünütərbiyəsini dərk edir, öz şəxsiyyətinə tərbiyənin obyekti kimi münasibət bəsləməyə başlayır və bu əsasda o, özünütərbiyə ilə əlaqədar qarşısına konkret məqsədlər qoymağa doğru istiqamətlənir. Gənclik dövrü özünütəkmilləşdirmənin fəal mərhələsi kimi.

Şəxsiyyətin inkişaf səviyyəsi onun xarici şəraitdən asılılığının azalmasını şərtləndirən əsas psixoloji amil kimi.

A.f.286943



M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Şüurlu özünütərbiyəyə tərbiyə prosesində və tərbiyə vasitəsilə təsir göstərmək imkanının mövcud olması.

Özünütərbiyə hadisəsinin əsasında şəxsiyyətin ətraf gerçəkliklə qarşılıqlı əlaqəsinin formalaşması və şəxsiyyətin xassələrinin dərk olunması durur.

Yeniyetmə və erkən gənclik dövrlərində özünütərbiyənin təşkili və həyata keçirilməsinin özünəməxsus keyfiyyət xarakteristikasının mövcud olması. Yeniyetmənin özünütərbiyəsi kortəbii və situativ xarakter daşıdığı halda, erkən gənclik dövründə öünütərbiyənin subyektiv realizm prinsipi əsasında qurulması.

Şəxsiyyətin inkişafını müşayiət edən tərbiyə və öünütərbiyənin vahid psixososial hadisə kimi təşəkkül edərək müəyyənləşməsi.

## Mövzu 9
## Özünütərbiyə vasitələrinin psixoloji əsasları

Özünütərbiyənin vasitələri haqqında analyış. Özünütərbiyə vasitəsi ilə özünətəsir vasitələrinin nisbəti. Özünütərbiyənin özünətəsir vasitəsi olmaqla şəxsiyyətin tərbiyəsi məqsədlərinə xidmət etməsi. Özünütərbiyə vasitələrinin təsnifi. Tərbiyə vasitələri ilə müqayisədə özünütərbiyə vasitələrinin özünəməxsus xarakteri.

Özünü məlumatlandırmaq özünütərbiyənin əsas vasitəsi və öz üzərində müəyyən iş aparmağın proqramı kimi. Yeni biliklərin mənimsənilməsi, müstəqil olaraq müxtəlif xarakterli ədəbiyyatın mütaliyəsi özünü məlumatlandırmağın vasitəsi kimi. Özünümənalandırmağa verilən tələblər: oxunmuş materialın dərk olunması, oxunmuş materialın mövcud biliklərlə əlaqələndirilməsi, müvafik nəticələrin və biliklərin sistemə salınması və ümumiləşdirilməsi, əldə olunmuş biliklər əsasında müstəqil olaraq nəticələrin çıxarılması, mənimsənilmiş məlumatlara istinad etmək yolu ilə özünütərbiyə



proqramının tərtib olunması. Öyrənilən materialın icmalının tərtib edilməsi. İcmalın tərtibinə verilən tələblər.

Özünütərbiyə proqramının mahiyyəti və məzmunu. Özünütərbiyə proqramı xarici tələblərin tərbiyə olunan tərəfindən interiorizasiyasının nəticəsi kimi. Özünütərbiyənin fərdi xüsusiyyətləri. Özünəöhdəçiliyin səciyyəsi. Onun öhdəçiliklə nisbəti. Sosial həyatın, ictimai münasibətlərin, insanın üzərinə düşən vəzifələrin şəxsi öhdəçiliyin qəbul olunmasına təsiri. Şəxsi öhdəçiliyin həyata keçirilməsində şəxsiyyətin daxili əqidəsinin rolu. İctimai cəhətdən əhəmiyyətli olan əmək fəaliyyəti özünütərbiyə proqramının həyata keçirilməsinin əsas vasitəsi kimi.

Özünənəzarət və özünütərbiyə proqramının yerinə yetirilməsində onun rolu. Özünənəzarətin növləri: qabaqcadan düşünülmüş məqsədə müvafiq xarakter daşımayan özünənəzarətin özünütərbiyədə aparıcı rolu. Özünənəzarətin əsas vəzifələri və funksiyaları.

Özünə hesabat vermək. Özünə hesabat vermək özünütərbiyə prosesinin gedişini istiqamətləndirən mühüm vasitə kimi. Özünü inandırma anlayışı və onun səciyyəsi. İnsanın iradəsinin fəallaşmasında özünü inandırmanın imkanları. Özünü inandırma özünə əmr etmənin səmərəli əsası kimi.

## Mövzu 10
## Özünüqiymətləndirmə-şəxsiyyətin özünütərbiyəsinin amili kimi

Özünüqiymətləndirmə anlayışı. Şəxsiyyətin formalaşmasında özünüqiymətləndirmənin mövqeyi və funksiyaları.

Özünüqiymətləndirmənin sosial amillərlə şərtlənməsi. İnsanın kollektivdə aktiv fəaliyyəti-onda obyektiv özünüqiymətləndirmənin təşəkkülünün zəruri şərti kimi. Məktəblilərdə özünüidarəetmənin formalaşmasında ictimai qiymətləndirmənin funksiyalarının səciyyəsi. Şagirdlərdə

özünüqimətləndirmənin təşəkkülündə və formalaşmasında pedaqoq tərəfindən verilən qiymətlərin rolu. Özünüqiymətləndirmənin inkişafı prosesinin əsas istiqamətləri.

Yeniyetmə dövründə özünüqiymətləndirmənin yaş xüsusiyyətləri. Yeniyetmələrdə özünüqiymətləndirmənin formalaşmasında şagird kollektivinin rolu. Gənclik dövründə özünüqiymətləndirmənin təzahür xüsusiyyətlərinin səciyyəsi. Özünüqiymətləndirmənin şəxsiyyətin mənimsədiyi dünyagörüşdən, ideallardan və sosial normalardan asılılığı.

Özünüqiymətləndirmə özünütərbiyənin amili kimi. Özünüqiymətləndirmənin mərhələləri və özünütərbiyənin xüsusiyyətlərinin və inkişafının istiqamətlərinin onlardan asılılığı.

Özünüqiymətləndirmənin əsas formaları: a) adekvat özünüqiymətləndirmə, b) aşağı salınan özünüqiymətləndirmə, c) şişirdilmiş özünüqiymətləndirmə.

Özünüqiymətləndirmənin inkişaf prosesinin öyrənilməsi və onun mərhələlərinin özünütərbiyə işinin təşkilində nəzərə alınmasının əhəmiyyəti.

Özünüqiymətləndirmənin psixoloji üsulları: özünümüşahidə, özünütəhlil, özünə hesabat vermək, müqayisə.

## Mövzu 11
## Özünütərbiyə və şəxsiyyətin davranış və fəaliyyətinin bəzi psixoloji xüsusiyyətləri

Xarici tərbiyəvi tələblərin interiorizasiyasının (daxili plana keçməsinin) psixoloji mexanizmlərinin mahiyyəti. Xarici tərbiyəvi təsirlərin mənimsənilməsi işinin səmərələşdirilməsi-şagirdlərin özünütərbiyəsinə pedaqoji rəhbərliyin ümumi şərti kimi.

Özünütərbiyənin şəxsi əhəmiyyətinin subyekt tərəfindən dərk olunması. Özünütərbiyə və şagirdin motivasiya sahəsi. Hər iki tərəfin qarşılıqlı əlaqəsi. Özünün müsbət və mənfi xüsusiyyətlərinə dair biliklərin şagirdlərdə emosional



mütəəssirlik doğurması. Özünütərbiyə vasitələrinin şagird tərəfindən dərk olunması. Özünütərbiyədə etnopsixoloji amillərin yeri və rolu. Pedaqoji nümunə və onun mənimsənilməsinin mərhələləri. Həyat perspektivlərinin özünütərbiyə işinin fəallaşmasında rolu. Rəğbətləndirmə özünütərbiyənin səmərəliliyinin vasitəsi kimi.

Özünütərbiyəyə rəhbərliyin pedaqoji əsasları: şagirdlərin ictimai cəhətdən əhəmiyyətli fəaliyyətinin təşkili, şagirdlərdə özünüdərketmənin təşəkkülü, özünətəsir vasitələrinin şagirdlər tərfindən dərk olunması. Şagirdlərin özünütərbiyəsinin kollektivin inkişaf səviyyəsindən asılılığı. Şagirdlərdə özünütərbiyə işini təşkil edərkən onların psixoloji xüsusiyyətlərinin nəzərə alınması. Ayrı-ayrı yaş mərhələlərində özünütərbiyədə baş verən keyfiyyət dəyişikliklərinin şagirdlərin özünütərbiyəsi işinin proqramında əks olunması.

Təlim-tərbiyə prosesində özünütərbiyənin zəmini olan özünüqiymətləndirmənin formalaşma şəraitinin və digər pedaqoji üsul və vasitələrin səciyyəsi. Şəxsi öhdəçiliklərin qəbul olunması özünütərbiyə və özünüqiymətləndirmə proseslərinin səmərələşdirilməsinin əsas amili kimi.

Özünütərbiyə problemi üzrə xüsusi məlumatların bu prosesin daha da fəallaşdırılmasında rolu. Müxtəlif özünüqiymətləndirmə mərhələlərinə daxil olan uşaqlarla aparılan fərdi işin özünəməxsusluğu.

## Mövzu 12
## Fəaliyyət psixologiyasının bəzi nəzəri məsələləri

Fəaliyyət kateqoriyası və onun elmi psixologiyada mövqeyi. Əşyavi fəaliyyət-insanın yaşamasının və inkişaf etməsinin əsas şərti kimi. Fəaliyyət psixologiyanın predmeti kimi. Fəaliyyət və psixi proseslər. İnsan fəaliyyətinin təhlili; fəaliyyət və davranış anlayışlarının müqayisəli səciyyəsi. Praktik fəaliyyət insan fəaliyyətinin başlanğıc və əsas forması kimi. Xarici və daxili fəaliyyət.Fəaliyyətin motiv və

məqsədləri. Bu barədə A.N.Leontyevin mülahizələri. İnsan fəaliyyətiin psixoloji tərifi.

Fəaliyyətin psixoloji strukturası. Fəaliyyətin psixoloji strukturası və fəaliyyətin ümumi quruluşu ifadələrinin fərqləndirici əlamətləri. İşlərin-şüurlu məqsədlərin həyata keçirilməsinə istiqamətlənən proseslər kimi xarakteristikası. İşlərin həyata keçirilməsinin vasitələri. İnsan fəaliyyətinin quruluşunun onun şüurunun quruluşu ilə daxili əlaqəsi.

İşin məqsədəmüvafiq xarakteri; işin psixoloji quruluşu. İşin obraz əsasında idarə olunması. İşin bələdləşmə əsası haqqında anlayış (P.YQalperin), İşin fəaliyyətin ümumi xüsusiyyətlərindən asılılığı. Daxili, əqli işlər. İşlərin əməliyyatlara çevrilməsi.Əməliyyatların nisbi müstəqilliyi və onların bir işdən digərinə keçirilməsi. Əməliyyatların əşyavi işlərdə möhkəmlənməsi. Əqli, intellektual əməliyyatlar.İşin müntəzəm olaraq korreksiyası və istiqamətləndirilməsi. Afferent sistemlərin və əks siqnalların mürəkkəb hərəki aktların idarə olunmasında rolu. Əks afferentasiya və "iş akseptoru" (N.A.Bernşteyn, P.K.Anoxin) haqqında anlayış. Hərəkətlərin koordinasiyası haqqında anlayış. Psixomatorika haqqında anlayış.

Xarixi və daxili fəaliyyət haqqında nalayış. Fəaliyyətin inkişafının müxtəlif mərhələlərində xarici və daxili fəaliyyətin vəhdəti. Daxili, ideal fəaliyyətin mənşəyi probleminin xarici fəaliyyətin yenidən qurulması və dəyişilməsi əsasında səciyyəsi. Xarici fəaliyyət proseslərinin interiorizasiyasına dair psixologiyada irəli sürülən psixoloji nəzəriyyələr (A.Vallon, J.Piaje, L.S.Vıqotski, A.N.Leontyev). Daxili, ideal işlərin eksteriorizasiyası prosesi və onların xarici işlərə çevrilməsi.

Fəaliyyətin mənimsənilməsi prosesinin sosial-psixoloji aspektləri. Vərdiş-işlərin yerinə yetirilməsinin avtomatlaşdırılması prosesi kimi; vərdişlərin yaradılmasının psixoloji şəraiti; mümarisələr. Vərdişlərin keçirilməsi, onun şərtləri. Vərdişlərin interferensiyası hadisəsi, onların səbəbləri,



aradan qaldırılması yolları. Bacarıq-dəyişilmiş şəraitdə işlərin yerinə yetirilməsinə hazır olmaq kimi.

Adətlər və şəxsiyyətin fəaliyyət və davranışlarında onların rolu.

Fəaliyyət və insanın şüuru. Fəaliyyətin müxtəlif növləri, insanın inkişafında onların mövqeyi. İctimai-faydalı əməyin insan həyatında və onun şüurunun formalaşmasında rolu. Əmək fəaliyyətinin öyrənilməsinin psixoloji aspektləri. Əmək yaradıcılıq kimi.

Təlim fəaliyyətinin psixologiyası. Əvvəlki nəsillərin əldə etdikləri ictimai təcrübənin mənimsənilməsinə yönəldilən təlim fəaliyyətinin özünəməxsus xüsusiyyətləri. Təlim fəaliyyətinin motivləri və məqsədləri. Bütün yaş mərhələlərində şəxsiyyətin inkişafında təlimin rolu.

Ünsiyyət-insan fəaliyyətinin növü kimi.

Estetik fəaliyyətin xüsusiyyətləri.

Fəaliyyətin məzmun və quruluşunun şəxsiyyətin psixoloji xassələrinin inkişafına təsiri.

## Mövzu 13
## Uşaq fəaliyyətinin təşəkkül və inkişafının psixogenetik problemləri

İctimai cəhətdən mütəşəkkil və istiqamətləndirilmiş fəaliyyət insanın psixi proses və qabiliyyətlərinin əsas vsitəsi və şərti kimi.

Müxtəlif yaş mərhələlərində uşağın psixi inkişafında və şəxsiyyətinin formalaşmasında onun cəlb olunduğu fəaliyyət növlərinin rolu problemi. Aparıcı fəaliyyət (A.N.Leontyev) anlayışı və onun təhliledici imkanları. Aparıcı fəaliyyətin psixi funksiyaların, emosional-iradi sferanın və şəxsiyyətin xassələrinin formalaşmasında rolu. Psixi inkişafın gedişi prosesində yeni fəaliyyət növlərinin formalaşmasının mexanizmləri.

Uşağın psixogenetik inkişafının ilk mərhələsində onun yaşlılarla və yaşıdları ilə ünsiyyətinin rolu. Bilavasitə xarakterli emosional ünsiyyət psixososial inkişafın əsas determinantı kimi. Emosional ünsiyyət-çağalıq dövrünün əsas fəaliyyət növü kimi. Çağanın ünsiyyət fəaliyyəti onun sosiallaşmasının əsas amili kimi.

Körpəlik dövründə əşyavi fəaliyyətin aparıcı mövqeyinin müəyyənləşməsinin psixoloji şəraiti. Əşyavi fəaliyyət-uşağın idraki inkişafının əsas amili kimi.Əşyalarla aparılan işlərin inkişafının funksional mərhələləri. Əşyavi fəaliyyətin formalaşmasında və əməliyyatlı təfəkkürün elementlərinin inkişafında nitqin rolu.

Məktəbəqədər yaş dövründə uşağın fəaliyyət sferasında baş verən dəyişikliklərin ümumi xarakteristikası. Oyun fəaliyyətinin aparıcı fəaliyyət növü kimi formalaşması. Oyun-uşağın sosiallaşmasının əsas psixososial amili kimi. Sosial münasibətlərə bələdləşmədə və şəxsiyyətin ilkin sabit təzahürlərinin müəyyənləşməsində oyun fəaliyyətinin müxtəlif növlərinin rolu.

Yeniyetmə dövründə aktiv ictimai fəaliyyət prosesi ilə vasitələşən ünsiyyət fəaliyyətinin aparıcı mövqeyə malik olmasını şərtləndirən psixososial inkişaf şəraitinin ümumi xarakteristikası. Yeniyetmə şəxsiyyətinin formalaşmasında və onun sosiallaşması prosesinin sürətlənməsində ünsiyyət fəaliyyətinin rolu. Yeniyetmənin təlim fəaliyyətinin inkişafetdirici imkanlarının psixopedaqoji səciyyəsi. Yeniyetmənin idrak fəaliyyətinin formalaşmasında təlim fəaliyyətinin rolu.

Böyük məktəbyaşı dövründə təlim-peşə fəaliyyətinin aparıcı fəaliyyət növü kimi formalaşmasının psixososial şəraiti.



## Mövzu 14
## Oyun fəaliyyəti, onun mahiyyəti və uşaq şəxsiyyətinin inkişafında rolu

Oyun fəaliyyətinin aparıcı fəaliyyət növü kimi formalaşmasının psixoloji xüsusiyyətləri. Oyun fəaliyyətinin psixososial mahiyyəti və onun təşəkkül və inkişafının tarixi-psixoloji səiyyəsi.

Oyunun ontogenezdə inkişafı. Uşağın həyatının ilk ilində hərəkətlərin, işlərin və yaşlı ilə ünsiyyətin inkişafının psixoloji xüsusiyyətləri.

Oyunun inkişafının kompleksli xarakteristikası. Rol və təxəyyüldə canlandırılan situasiya: oyun fəaliyyətinin motivasiyasında onların rolu. Uşağın oyun qaydalarına münasibətinin inkişafı.

Oyun və motivasiya-tələbat sferasının inkişafı. Oyun və əqli işlərin inkişafı. Oyun və ixtiyari davranışın inkişafı.

Oyun fəaliyyəti uşağın sosiallaşmasının mühüm amili kimi. Uşaq şəxsiyyətinin ilkin əlamətlərinin inkişafında süjetli-rollu oyunların rolu.

Oyun fəaliyyəti-uşaq şəxsiyyətinin hərtərəfli inkişafına istiqamətlənən aparıcı fəaliyyət növü kimi.

## Mövzu 15
## Şəxsiyyətin idrak sferasının inkişafında müxtəlif fəaliyyət növlərinin rolu

Şəxsiyyət və fəaliyyət. Onların qarşılıqlı asılılığı probleminin psixopedaqoji məsələləri. Xarici və daxili fəaliyyət haqqında anlayış. Koqnitiv psixologiya haqqında anlayış. Koqnitiv fəaliyyətin şəxsiyyətin emosional-iradi sfera ilə əlaqəsinin psixoloji problemləri.

Müxtəlif fəaliyyət növlərinin psixogenetik inkişafının və formalaşmasının psixoloji məsələləri.

Əşyavi fəaliyyət və əqli inkişaf. Praktik-əşyavi fəaliyyətin formalaşmasında nitq fəaliyyətinin rolu.

Süjetli-rollu oyunlar uşaq şəxsiyyətinin psixososial inkişafının mühüm amili kimi. Oyun fəaliyyəti və uşağın sosiallaşmasının psixoloji məsələləri.

Təlim fəaliyyəti və idrak proseslərinin inkişafında onun rolu. Diqqət və hafizənin inkişafında təlim fəaliyyətinin rolu. Şəxsiyyətin intellektual keyfiyyətlərin formalaşmasında təlim fəaliyyətinin aparıcı rolu. Təlim şəxsiyyətin koqnitiv inkişafını şərtləndirən aparıcı fəaliyyət növü kimi.

İctimai-faydalı əməklə müşayiət olunan ünsiyyət fəaliyyətinin və təlim-peşə fəaliyyətinin şəxsiyyətin intellektual və psixososial inkişafına təsiri.



**"Şəxsiyyət və fəaliyyətin psixologiyası" kursu üzrə tematik plan**

| № | Məşğələnin mövzuları | Məşğələnin növü,saat | |
|---|---|---|---|
| | | Mühazirə | Seminar |
| 1 | Şəxsiyyət və onun mahiyyətinin psixoloji problemləri | 2 | 2 |
| 2 | Şəxsiyyətin quruluşunun psixoloji problemləri | 2 | 2 |
| 3 | Şəxsiyyət psixologiyasında irəli sürülən klassik nəzəriyyələr | 2 | 2 |
| 4 | Şəxsiyyət psixologiyasında irəli sürülən müasir nəzəriyyə və baxışlar | 2 | 2 |
| 5 | Şəxsiyyətin ontogenetik inkişafının psixoloji problemləri | 2 | 2 |
| 6 | Uşaq şəxsiyyətinin inkişaf nəzəriyyəsinin psixoloji problemləri | 2 | 2 |
| 7 | Özünütərbiyə anlayışı və şəxsiyyətin inkişafının hərəkətverici qüvvələri | 2 | 2 |
| 8 | Özünütərbiyə prosesinin təşəkkülü və məktəbli şəxsiyyətinin inkişafında onun rolu | 2 | 2 |
| 9 | Özünütərbiyə vaitələrinin psixoloji əsasları | 2 | 2 |
| 10 | Özünüqiymətləndirmə-şəxsiyyətin özünütərbiyəsinin | 2 | 2 |

| | | | |
|---|---|---|---|
| | amili kimi | | |
| 11 - | Özünütərbiyə və şəxsiyyətin davranış və fəaliyyətinin bəzi psixoloji xüsusiyyətləri | 2 | 2 |
| 12 | Fəaliyyət psixologiyasının bəzi nəzəri məsələləri | 2 | 2 |
| 13 | Uşaq fəaliyyətinin təşəkkül və inkişafının psixogenetik problemləri | 2 | 2 |
| 14 | Oyun fəliyyəti, onun mahiyyəti və uşaq şəxsiyyətinin inkişafında rolu | 2 | 2 |
| 15 | Şəxsiyyətin idrak sferasının inkişafında müxtəlif fəaliyyət növlərinin rolu | 2 | 2 |
| CƏMİ: | | 30 | 30 |



**Ədəbiyyat**


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Dərslik. İkinci nəşr "Çinar-çap" nəşriyyatı. Bakı, 2002.
2. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. "Maarif" nəşriyyatı. Bakı,1981.
3. Əlizadə Ə.Ə., Əzimov Q.E., Quliyev E.M. Məktəblinin psixologiyası. Tədris vəsaiti. V.İ.Lenin adına APİ-nin nəşri. Bakı, 1990.
4. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Pedaqoji psixologiya. Dərslik.ADPU-nun nəşri. Bakı,2010.
5. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları.Bakı,2000.
6. Əliyev R.İ. Tərbiyənin psixologiyası. Tədris vəsaiti. Bakı, 2006.
7. Həmzəyev M.Ə. Pedaqoji psixologiya. Tədris vəsaiti. "Maarif" nəşriyyatı. Bakı,1991.
8. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Tədris vəsaiti. İkinci nəşr. "Adiloğlu" nəşriyyatı. Bakı. 2003.
9. Qədirov Ə.Ə. Yaş psixologiyası. Tədris vəsaiti. "Maarif" nəşriyyatı. Bakı, 2002.
10. Quliyev E.M. Uşaq psixologiyası. Testlər. ADPU-nun nəşri.Bakı,2013.
11. Quliyev E.M. Pedaqoji psixologiyanın əsasları. Testlər. ADPU-nun nəşri. Bakı, 2013.
12. Quliyev E.M. Şəxsiyyət və fəaliyyətin psixologiyası. Testlər. ADPU-nun nəşri. Bakı, 2014.
13. Psixologiya. Prof S.İ.Seyidov və prof M.Ə.Həmzəyevin elmi redaktorluğu ilə. Bakı, 2007.
14. Ümumi psixologiya. A.V.Petrovskinin redaktorluğu ilə. Rus dilindən tərcümə. "Maarif" nəşriyyatı. Bakı, 1982.
15. Абрамова Г.С.Практическая психология. М., 1997.
16. Асмолов А.Г.Психология личности.М.,1990.

17. Божович Л.И.Личность и ее формирование в детском возрасте.М., 1968.
18. Божович Л.И.Избранные психологические труды.М., 1995.
19. Бадалев А.А.Личность в общении.М., 1983.
20. Бадалев А.А.Психология личности.М., 1988.
21. Валлон А.Психическое развитие ребенка. М., 1967.
22. Введение в психологию.Учебник.Под общей редакцией А.В. Петровского.М., 1996.
23. Выготский Л.С.Вопросы детской психологии. С.Пб.,1997.
24. Гришин Д.М.,Колдинов Я.И.Руководства самовоспитанием школьников.М..1975.
25. Гамезо М.В., Петрова Е.А., Орлова Л.М. Возрастная и педагогическая психология. М., 2003.
26. Грейс Крайг, Дон Бакум. Психология развития.М., 2005.
27. Зейгарник Б.В. Теория личности К.Левина.М., 1981.
28. Леонтьев А.Н.Деятельность. Сознание.Личность. М.,1977.
29. Леонтьев Д.А.Очерки психологии личности.М.,1993.
30. Мудрик А.В.О воспитании старшеклассников. М.,1976.
31. Ньюкомб Н.Развитие личности ребенка. СПб.,2002.
32. Петровский А.В.Личность. Деятельность. Коллектив. М., 1982.
33. Психология человека от рождения до смерти. Под редакцией А.А.Реана. М., 2002.
34. Психология личности. Тексты.М..1982.
35. Психоология индивидуальных различий. Под редакцией Ю.Б.Гиппенрейтер, В.Я.Романова. М., 1982.
36. Психология развивающейся личности. Под редакцией А.В.Петровского.М., 1987.



37. Рувинский Л.И.Психолого-педагогические проблемы нравственного воспитания школьников. М..1981.
38. Рувинский Л.И.Самовоспитание личности.М.,1984.
39. Рувинский Л.И.Самовоспитание чувств, интеллекта, воли.М., 1986.
40. Рубинштейн С.Л.Основа общей психологии. СПб.,1998.
41. 100 великих психологов. Автор-составитель В.Яровицкий.М.,2004.
42. Савенков А.И..Педагогическая психология. В двух томах.М., 2009.
43. Тайсон Р.. Тайсон Ф.Психоаналитическая теории развития. М.,1999.
44. Урунтаева Г.А.Детская психология. М.,2006.
45. Фрейд З.Я.Лекции по введению психоанализ. М.,1989.
46. Франкл В.Э.Человек в поиcках смысла. М..1990.
47. Фромм Э.Человеческая ситуация.М.,1994.
48. Хьелл Л.,Зиглер Д.Теория личности.СПб., 2005.
49. Эльконин Д.В.Психология игры.М.,1978.
50. Эльконин Д.В.Избранные психологические труды. М.,1989.

*Çapa imzalanmış 07.10.2015- ci il*
*Kağız formamı 60x84 1/16, çap vərəqi 2*
*Sifariş 455 sayı 200*

---

***ADPU-nun мətbəəsi***
***Bакı, Ü.Hacıbəyov küçəsi, 68***
***Tel: (+912) 493-74-10***
***E.mail. ADPU@Box.az***

Azf-286993